● Maddi-mədəni sərvətimiz

# Daha bir xalça sexi açılıb

## Bu, cəbhə bölgəsi olan Tərtərdə xalq sənətinə qayğının ifadəsidir



**Respublikamızda xalçaçılıq tətbiqi sənət növünün ən qədim sahələrindən biridir. Azərbaycanda xalça toxuculuğu Tunc dövründə, yəni 5 min il bundan əvvəl meydana gəlib. Onlar boyaların tükənməz zənginliyi, naxışların bənzərsizliyi, yaradıcılıq təxəyyülünün gücü və yüksək sənətkarlığı ilə fərqlənir. Xalçalarımız dünyanın ən məşhur muzeylərini bəzəyir. Quba-Şirvan, Gəncə-Qazax, Qarabağ, Təbriz xalçaçılıq məktəbləri bütün dünyada tanınır.**

Prezident İlham Əliyevin həmin sahənin inkişafı ilə bağlı verdiyi tapşırıqlar və imzaladığı sərəncamlar bu baxımdan xüsusi əhəmiyyətə malikdir. Dövlət başçısı "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Tərtər filialının açılışında da iştirak edib. Burada müxtəlif ölçülü 43 dəzgahda Azərbaycan xalçaları toxunacaq və əsas üstünlük orijinal Qarabağ xalça çeşnilərinə veriləcəkdir.

Dövlət başçısının sərəncamlarına uyğun olaraq, yaradılması nəzərdə tutulmuş 31 xalça müəssisəsindən 13-ü artıq istifadəyə verilib, 8-i isə fəaliyyətə hazırdır. Daha 10 fabrikin tikintisi layihələndirilir. Bundan başqa, yunəyirici-boyaq fabrikinin, hazır xalçaların emalı mərkəzinin, yun və boyaq tədarükü məntəqələrinin yaradılması istiqamətində mühüm işlər görülür.

Filialda 150 nəfər toxucunun və 14 nəfər inzibati-təsərrüfat işçisinin çalışması nəzərdə tutulub və hazırda 85 nəfər, o cümlədən 71 nəfər toxucu və 14 nəfər inzibati-təsərrüfat işçisi işlə təmin edilib.

Azərbaycan.- 2020.- 25 iyun.- S.10.